2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Tofiq Həsənov və İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 oktyabr 2015-ci il tarixli 22 saylı və 2 oktyabr 2015-ci il tarixli 23 saylı müraciətlər üzrə

# BİRGƏ RƏYİ

Bakı şəhəri 2 oktyabr 2015-ci il

Biz, ekspert qrupunun üzvləri Tofiq Həsənov və İradə Hacıyeva 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmış Elmira Hüseyn qızı Axundovanın səlahiyyətli nümayəndəsi Xanbalayev Orxan Zahid oğlu 2015-ci il oktyabrın 1-də, həmin seçki dairəsindən namizədliyi özü tərəfindən irəli sürülmüş Məhərrəmov Elnur Qərib oğlu, namizəd kimi qeydə alınmış Əhədov Cümşüd Novruz oğlu və Məmmədov Aliq Nağı oğlu 2015-ci il oktyabrın 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün ekspert qrupunun üzvü tərəfimdən icraata qəbul edilmişdir.

71 saylı Masallı kənd seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmış Elmira Hüseyn qızı Axundovanın səlahiyyətli nümayəndəsi Xanbalayev Orxan Zahid oğlu 2015-ci il oktyabrın 1-də, həmin seçki dairəsindən namizədliyi özü tərəfindən irəli sürülmüş Məhərrəmov Elnur Qərib oğlu, namizəd kimi qeydə alınmış Əhədov Cümşüd Novruz oğlu və Məmmədov Aliq Nağı oğlu 2015-ci il oktyabrın 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, seçkiqabağı təşviqatın başlanmasına xeyli vaxt qalmasına baxmayaraq, həmin dairə üzrə deputatlığa namizədliyi özü tərəfindən irəli sürülmüş Qənbərov Gülağa Məmi oğlunun vaxtından əvvəl seçkiqabağı təşviqat apardığını iddia edərək, onun bir sıra seçicilərlə görüşdüyünü, onlara müxtəlif məbləğlərdə pul təklif etdiyini, bununla da seçicilərə təsir etmək məqsədi güddüyünü bildirərək, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvləri tərəfindən araşdırmaya qəbul edilmiş, bir icraatda birləşdirilərək bu barədə müvafiq rəy verilərək Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma nəticəsində müraciətlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin və müvafiq təlimatın aidiyyətə dair tələblərinin pozulması ilə daxil olması müəyyən edildiyindən onlar araşdırılması üçün aidiyyəti üzrə müvafiq dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci maddəsinin tələblərinə görə seçki subyektləri şikayəti müvafiq seçki komissiyasına təqdim edə bilərlər. Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının

qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 32.2.4-cü maddəsinə əsasən seçki dairəsi üzrə təşviqat subyektləri üçün bərabər seçkiqabağı fəaliyyətin həyata keçirilməsinə müvafiq dairə seçki komissiyaları nəzarət edir.

Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət ona baxan ekspert qrupunun səlahiyyətlərinə aid deyilsə və aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aiddiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i k :**

1. 2015-ci il noyabrın 1-ə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmış Elmira Hüseyn qızı Axundovanın səlahiyyətli nümayəndəsi Xanbalayev Orxan Zahid oğlu, həmin dairədən namizədliyi özü tərəfindən irəli sürülmüş Məhərrəmov Elnur Qərib oğlu, namizəd kimi qeydə alınmış Əhədov Cümşüd Novruz oğlu və Məmmədov Aliq Nağı oğlu tərəfindən Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 və 2 oktyabr 2015-ci il tarixli 22 və 23 saylı müraciətlər aidiyyəti üzrə baxılması üçün 71 saylı Masallı kənd seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvləri: Tofiq Həsənov
İradə Hacıyeva